Azərbaycan Respublikasının
Dövlət Turizm Agentliyi

azərbaycan
TURİZM BÜROSU

# Azərbaycan
# *İşgüzar tədbirlər strategiyası icmalı*
# *2024-2026*

**Versiya: 1.2** (Fevral 2025)
**Səhifə sayı:** 8

Bu sənəd (əlavə və qoşmalarla birlikdə) yalnız Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi (DTA) və Azərbaycan Turizm Bürosu (ATB) üçün hazırlanmışdır. O yalnız təqdim edildiyi məqsəd üçün nəzərdə tutulub. DTA/ATB-nin açıq şəkildə yazılı icazəsi alınmadan bu sənədin heç bir hissəsinin üçüncü tərəflər üçün surəti çıxarıla, paylaşıla və ya açıqlana bilməz. DTA/ATB bu sənədin nəzərdə tutulmuş məqsədindən başqa məqsədlər üçün istifadə edilməsi və ya səlahiyyəti olmayan tərəflərə açıqlanması halında hər hansı bir məsuliyyət daşımır.

# Giriş

Modern infrastrukturu, müasir standartlara uyğun görüş məkanları, fərqli qonaqlama yeri seçimləri, diqqətəlayiq zalları, yüksək səviyyəli irsi abidələri və orijinal mədəni təcrübələri ilə Azərbaycan qlobal işgüzar tədbirlər sənayesində rəqabət qabiliyyətini artırmaq üçün bütün vacib elementlərə malikdir.

Azərbaycan Turizm Bürosunun (ATB) Beynəlxalq bazarlar və işgüzar tədbirlər departamenti Azərbaycanın yüksək səviyyəli tədbir məkanı kimi tanıdılması və ölkənin işgüzar tədbirlər sənayesinin inkişaf etdirilməsi məqsədilə dövlət və özəl sektor qurumlarını bir araya gətirmək üçün yaradılmışdır.

Bu günə qədər iki əsas nailiyyət əldə olunub: Azərbaycana işgüzar tədbirlərin cəlb edilməsi mexanizmi kimi İşgüzar Tədbirlər Sənayesi Alyansının yaradılması və Azərbaycanın Beynəlxalq Konqres və Konvensiya Assosiasiyasına üzv olması.

## ATB-nin Beynəlxalq bazarlar və işgüzar tədbirlər departamentinin rolu

ATB-nin Beynəlxalq bazarlar və işgüzar tədbirlər departamentinin rolu aşağıdakılardır:

- Azərbaycanı yüksək səviyyəli işgüzar tədbirlər məkanı kimi tanıtmaq üçün B2B sərgilər, vörkşoplar, forumlar, tanışlıq (FAM) turları və məkan yoxlanışları təşkil etmək
- Azərbaycanın marketinqinə və işgüzar tədbirlərin təşkilinə öncüllük etmək
- Azərbaycanda keçirilə biləcək potensial tədbirləri müəyyən etmək
- Potensial müştərilər cəlb etmək və onları sənaye mütəxəssisləri ilə əlaqələndirmək
- Milli və beynəlxalq işgüzar tədbirlər sənayesi mütəxəssisləri ilə əməkdaşlıq etmək
- Sənaye fəaliyyətləri üçün əsas əlaqə nöqtəsi kimi xidmət göstərmək
- Hədəf xidmətlər vasitəsilə nümayəndələrin təcrübə keyfiyyətinin yaxşılaşdırılması
- Sənayenin effektivliyini və rentabelliyini artırmaq üçün xüsusi xidmətlər təqdim etmək
- Müvafiq məlumatların tədqiqatını, toplanmasını və yayılmasını əlaqələndirmək

# İşgüzar tədbirlər bölməsi

ATB 2019-cu ildən Beynəlxalq Konqres və Konvensiya Assosiasiyasının (BKKA-nın) üzvüdür. BKKA-nın son hesabatına istinadən Azərbaycan hər il keçirilən assosiasiya tədbirlərinin sayı əsasında assosiasiya tədbirlərinin keçirilməsi tezliyinə görə qlobal miqyasda 89-cu yerdə qərarlaşıb.

Azərbaycanın qlobal potensialını nümayiş etdirmək üçün nüfuzlu tədbirlərə ev sahibliyi etdiyini, xüsusilə də **BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) təşkilini vurğulamaq olar:**

## "Yaşıl dünya naminə həmrəylik"

### COP29: Bakıda iqlim dəyişikliklərinə davamlı gələcəyin qurulması

Tərəflər Konfransının 29-cu sessiyası (COP29) 2024-cü ilin noyabrında baş tutacaq və Azərbaycan bu tədbirə sədrlik edəcək. Zəngin mədəni irsi və beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etməsi ilə tanınan Bakı şəhəri bu mühüm toplantı üçün dünya liderlərini, iqlim mütəxəssislərini və aktivistləri Bakı Stadionunda qarşılayacaq.

Tərəflər Konfransı (COP) BMT-nin İqlim Dəyişikliyi üzrə təşkil etdiyi illik tədbirdir və onun sədrliyi BMT-nin beş regionu arasında rotasiya prinsipi əsasında dəyişir.  Bu struktur hər bir regionun özünəməxsus üstünlüklərindən və baxış bucağından faydalanaraq iqlim dəyişikliyinə çoxşaxəli və inklüziv yanaşmanı təmin edir.

Son on ildə Azərbaycan ümumilikdə 135 assosiasiya tədbirinə ev sahibliyi edib ki, bu da ildə orta hesabla doqquz tədbir deməkdir ki, bu rəqəm illik assosiasiya tədbirləri sayının ortalaması qədərdir. COVID-19 pandemiyasından əvvəlki iki il ərzində Azərbaycan ildə 15 assosiasiya tədbiri ilə ən yüksək göstəriciyə çatmışdı. Pandemiya ölkədə keçirilən assosiasiya tədbirlərinin sayında kəskin azalmaya səbəb oldu. Lakin bölmə sonrakı illərdə bərpa yoluna qədəm qoydu və ilbəil artımlar müşahidə edildi. 2023-cü ildə keçirilən assosiasiya tədbirlərinin sayı 2018-2019-cu illərdə müşahidə olunan pik həddin təxminən 53 faizi səviyyəsində olub.

## Şəkil 1. Beynəlxalq assosiasiyaların Azərbaycanda keçirilən görüşləri




2013–2023-cü illər arasında Azərbaycanda keçirilən assosiasiya tədbirlərinin əksəriyyəti texnologiya sektoruna aid idi (22 tədbir, 16.3 faiz), daha sonra idman sektoru (18 tədbir, 13.3 faiz), mədəniyyət sektoru (9 tədbir, 6.7 faiz) və təhsil sektoru (9 tədbir, 6.7 faiz) gəlir.

## Şəkil 2. 2013–2023-cü illərdə Azərbaycanda keçirilən assosiasiya görüşlərinin fəaliyyət sahələri



# İşgüzar tədbirlər resursları

- **Təşkilatların dəstəklənməsi**

  Milli turizm qurumlarının - Dövlət Turizm Agentliyi (DTA) və ATB-nin, həmçinin sənaye assosiasiyalarının - Azərbaycan Turizm Agentlikləri Assosiasiyası (ATAA), Azərbaycan Hotellər Assosiasiyası (AHA) və Azərbaycan Turizm Bələdçiləri Assosiasiyasının (ATBA) mövcudluğu ilə Azərbaycan uğurlu və rəqabətədavamlı işgüzar tədbirlər sənayesi üçün tələb olunan əsas təşkilati infrastrukturu əksərən təmin etməkdədir.

- **Qonaqlama**

  Azərbaycanın işgüzar tədbirlərinin uğurunda qonaqlama həlledici rol oynayaraq iştirakçılara ölkənin rəngarəng mədəni mühiti fonunda rahat və münasib şərait təşkil edir. Qonaqlama yerlərinin strateji seçimi yüksək qonaqpərvərlik standartlarına sadiqliyi əks etdirir. Bu amil iştirakçıların təcrübələrini maneəsiz yaşaması və Azərbaycanın unikal mədəni irsini nümayiş etdirmək baxımından vacibdir.

  Bakı və Abşeron yarımadasında, ümumilikdə, 14,950 otaqdan ibarət 349 qonaqlama yeri mövcuddur. Bu obyektlər arasında Ritz-Carlton, Four Seasons, JW Marriott, Fairmont, Hilton, InterContinental, Hyatt Regency, Marriott, Holiday Inn, Courtyard by Marriott və Radisson kimi dünya şöhrətli beynəlxalq hotel brendləri də var.

  Qonaqlama seçimləri arasında işgüzar tədbirlər üçün uyğun olan, yüksək səviyyəli toplantı imkanlarına malik obyektlər də mövcuddur. Buraya görüş və konfrans zalları, eləcə də 1,300 oturacaq tutumlu böyük bal zalı daxildir.

- **Tədbir zalları**

  Tədbir zalları uğurlu işgüzar tədbirlərin təşkilində fundamental bir element olub məhsuldar görüşlər üçün zəruri infrastruktur və mühit təmin edir. Azərbaycanın zəngin mədəni irsi, habelə sürətlə inkişaf edən infrastrukturu nəzərə alındıqda uyğun məkanların seçimi xüsusilə əhəmiyyətlidir. Strateji məkan seçimi tədbirin logistik aspektlərini asanlaşdırmaqla yanaşı iştirakçıların ümumi təcrübəsini də zənginləşdirir.

  Son on ildə Azərbaycanda dünya səviyyəli məkanlar hazırlanıb, müxtəlif ölçülü tədbirlərin təşkili üçün müasir texnologiyalarla təchiz olunmuş yerlər yaradılıb. Bu məkanlar arasında Qafqaz regionunun nəhəg, çoxfunksiyalı tədbir məkanı olan Bakı Konqres Mərkəzi 3,500 nəfərlik tutuma malikdir. Həmçinin Azərbaycanın memarlıq incisi hesab olunan Heydər Əliyev Mərkəzinin əsas auditoriyası da 1,000 nəfərlik tutumu və unikal dizaynı ilə diqqət çəkir.

- **İşgüzar tədbirlər üzrə ixtisaslaşan Destinasiya Menecmenti Şirkətləri**

  İşgüzar tədbirlər üzrə ixtisaslaşan Destinasiya Menecmenti Şirkətləri (DMŞ-lər) işgüzar tədbirlərin planlaşdırılması və icrasında əvəzolunmaz rol oynayır. Ölkənin beynəlxalq işgüzar toplantılar üçün aparıcı destinasiya kimi artan nüfuzunu nəzərə alaraq qeyd etməliyik ki, Azərbaycanda bu Destinasiya Menecmenti Şirkətlərinin (DMŞ-lər) ixtisaslaşması xüsusilə qiymətlidir. Hal-hazırda təxminən 20 Destinasiya Menecmenti Şirkəti (DMŞ) ölkənin əsas hədəf bazarlarına uyğun işgüzar tədbirlər xidmətləri üzrə ixtisaslaşır.

- **Restoranlar və keytrinq**

  Restoranların və keytrinq xidmətlərinin keyfiyyəti və çeşidi işgüzar tədbirlərin uğuru üçün kritik əhəmiyyət daşıyır, ümumi qonaq təcrübəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırır. Azərbaycanın zəngin kulinariya irsi və çeşidli mətbəx seçimləri nəzərə alındıqda düzgün yemək və içki (F&B) tərəfdaşlarının seçilməsi olduqca vacibdir. Bu yalnız işgüzar tədbirlərin iştirakçılarına yüksək keyfiyyətli yeməklər təqdim etmir, eyni zamanda Azərbaycanın unikal dadlarını nümayiş etdirmək imkanı yaradır. Azərbaycanda fəaliyyət göstərən restoranlar və keytrinq şirkətləri geniş milli və beynəlxalq mətbəxlərdən, o cümlədən halal, veqan, vegetarian, koşer və xüsusi mətbəxlərdən ibarət müxtəlif pəhriz tələbatlarına uyğun seçimlər təqdim edir.

- **Nəqliyyat xidməti**

  Tədbir iştirakçılarının qonaqlama yerləri, tədbir zalları və digər məkanlar arasında rahat və vaxtında daşınmasının təmin edilməsi işgüzar tədbirlərin təşkilində ən vacib amillərdən biridir. Etibarlı, rahat və əlçatan nəqliyyat seçimlərinin təmin edilməsi ümumi qonaq təcrübəsini yaxşılaşdırmaq və tədbir logistikasını optimallaşdırmaq üçün əhəmiyyətlidir.

- **İşgüzar tədbir məhsulları**

  İşgüzar tədbir məhsulları və xidmətləri tədbirlərin sadəcə yaxşı təşkil edilməsini deyil, həm də bütün iştirakçılar üçün unudulmaz, cəlbedici və təsirli olmasını təmin edir. Bu sahədəki bizneslər hər bir tədbirin özünəməxsus tələblərinə və məqsədlərinə uyğunlaşdırılmış həllər təklif edir. Ümumi tədbir təcrübəsini yaxşılaşdırmağa, uğurlu nəticələr və uzunmüddətli təəssüratlar yaratmağa kömək edir.

## Strateji çərçivə

Azərbaycan üzrə korporativ və assosiasiya tədbirləri üçün strateji hədəflərimiz aşağıdakılardır:

- İşgüzar tədbirlərin keçirilməsi üçün cəlbedici destinasiya kimi Azərbaycanın nüfuzunu artırmaq
- Regionlar da daxil olmaqla, Azərbaycana daha çox beynəlxalq və yerli işgüzar tədbirlər cəlb etmək
- Azərbaycana işgüzar tədbirləri cəlb edən davamlı, yüksək keyfiyyətli cazibə mərkəzlərinin inkişafını təşviq etmək
- Yerli tərəfdaşların və hədəf bazarlarının tələbinə uyğun yeni, təşviqedici və korporativ məhsullar təqdim etmək
- Sənayeyə aid investorlar, təchizatçılar və digər təsisatlar arasında əlaqəni təmin etmək

# Assosiasiya tədbirləri

Azərbaycana cəlb ediləcək assosiasiya tədbirlərinin seçimi, tədbir, yerli nümayəndələr və yerli assosiasiyalarla əlaqəli mühüm meyarlara əsaslanaraq qiymətləndirilir:

**Assosiasiya tədbirlər**

- ☐ Azərbaycandakı yerli nümayəndələr
- ☐ Assosiasiyanın rotasiya əsaslı, potensial əlçatanlığı
- ☐ 1000-1500 nümayəndəli potensial tədbir tutumu

**Hökumət qurumları ilə sıx əlaqə**

- ☐ Hökumət qurumları ilə sıx əlaqə
- ☐ Assosiasiyada möhtərəm status
- ☐ Seçkin və iddialı şəxsiyyət
- ☐ Hökumətin roluna aydın baxış

**Yerli assosiasiyalar**

- ☐ Müvafiq tədbirlərin keçirilməsinə dair keçmiş təcrübə
- ☐ Tender prosesinin qavrayışı və tutumu
- ☐ Yerli assosiasiyalar müvafiq qurumlar tərəfindən dəstəklənməli, rəsmi məktubla sübut olunmalıdır

ATB işgüzar tədbirləri cəlb etmək üçün  əsas assosiasiya sahələrindən aşağıdakılara üstünlük verib:

- Tibb və əczaçılıq
- Neft və qaz
- Alternativ enerji
- Təhsil
- Kənd təsərrüfatı, fermerlik və kənd iqtisadiyyatı
- İnformasiya və texnologiya, rəqəmsal iqtisadiyyat
- Kosmik sənaye

# Korporativ tədbirlər

Korporativ tədbirlər işçilər, tərəfdaşlar, müştərilər və potensial müştərilər üçün təşkil edilən yığıncaqları əhatə edir. Bu tədbirlərə konvensiyalar, görüşlər və korporativ şənliklər daxildir. Tədbirlər daha geniş auditoriyalar üçün konvensiyalar formatında və ya daha kiçik formatda, konfranslar, iclaslar və ya korporativ ziyafətlər şəklində ola bilər.

Hal-hazırda ATB-nin hədəflədiyi korporativ tədbirlər üçün mənbə bazarları aşağıdakılardır:

- Rusiya və MDB ölkələri
- Hindistan
- Türkiyə
- Yaxın Şərq
- Pakistan
- İsrail
- Avropa
- Çin

ATB-nin korporativ seqment üçün istifadə etdiyi əsas inkişaf vasitələri B2B görüşlər və vörkşoplar, sərgilər, satış missiyaları, tanıtma və şəbəkələşmə tədbirləridir.

**B2B tədbirlər və vörkşoplar**

B2B seminar və görüşlərində iştirak əsas korporativ nümayəndələrlə görüşlər keçirməyə, birbaşa əlaqələr qurmağa və əsas qərar qəbul edənlərlə strateji münasibətlər yaratmağa imkan verir. Həmçinin potensial əməkdaşlıqları müzakirə etmək, yerli sənaye tərəfdaşlarını beynəlxalq korporativ sektorla birləşdirmək və sponsorluq imkanlarından yararlanmaqla tanınma səviyyəsini maksimuma çatdırmaq mümkündür.

Son illərdə ATB-nin iştirak etdiyi B2B tədbirlərə MILT Hindistan, MALT BƏƏ, KBLT Səudiyyə Ərəbistanı və M&I Forum daxildir.

- **Sərgilər**
  Beynəlxalq sərgilərdə iştirak Azərbaycanın işgüzar tədbirlər üçün destinasiya imicini gücləndirir. Yerli işgüzar tədbirlər sənayesi tərəfdaşlarını birgə iştirakçı kimi ölkəmizə dəvət etmək imkanı yaradır. Əhəmiyyətli platformalara IMEX Frankfurt və IBTM World Barselona daxildir.

- **Satış missiyaları**
  Satış missiyaları ATB-nin yerli sənaye tərəfdaşları ilə birlikdə hədəf korporativ bazarlarına səfər edərək əsas korporativ müştərilərlə görüşlərini əhatə edir.

- **Yol şouları**
  Birinci dərəcəli hədəf bazarlarında istirahət və işgüzar tədbirlər turizmi seqmentlərini əhatə edən yol şoularının təşkil edilməsi. Müvafiq bazarlarda istirahət və işgüzar tədbir xidmətlərinə fokuslanan yerli sənaye tərəfdaşlarının (hotellər və Destinasiya Menecmenti Şirkətləri) bu yol şoularına cəlb edilməsi və qeydiyyata alınması. Beynəlxalq tədarükçülərin, xüsusilə də ATB-nin nümayəndəlik ofislərinin dəstəyi ilə beynəlxalq tərəfdaşların (70%-i istirahətlə əlaqədar turoperatorlar / turagentliklər və 30%-i işgüzar və tədbir yönümlü turoperatorları / turagentliklər) dəvət edilməsi.

- **Tanıtma və şəbəkələşmə tədbirlər**
  Sərgilər və ticarət yarmarkaları çərçivəsində təşkil edilən tanıtma və şəbəkələşmə tədbirləri beynəlxalq və yerli işgüzar tədbirlər sənayesi tərəfdaşları arasında əlaqələri gücləndirmək üçün fürsət yaradır. Belə tədbirlər destinasiya təqdimatları üçün yaxşı platformadır.

- **Təşviqlər**
  Təşviq turları şirkətlərin və ya təşkilatların öz işçilərinə, komanda üzvlərinə, satış qruplarına, tərəfdaşlarına və hətta müştərilərinə səyahət şəklində təqdim etdiyi mükafatdır. Təşviq turlarının əsas məqsədi yüksək göstəriciləri və sədaqəti mükafatlandıraraq işçilərin əhval-ruhiyyəsini qaldırmaqdır. Bu turlar müxtəlif formalarda təşkil oluna bilər, lakin əsasən komanda quruculuğu fəaliyyətlərini təşviq etmək üçün tam əhatəli səfərləri, bayramları, ildönümləri və şənliklər üçün təşkil olunan korporativ şam yeməkləri, zehni, bədəni və ruhu sağaldan unikal təcrübələr üçün təşkil olunan korporativ istirahətlər və digər istirahət fəaliyyətlərini əhatə edir.